# Dəyərli dərs vəsaiti




"Mən bütün ömrümü, həyatımı şeirə, sənətə, ədəbiyyata, onun tədqiqinə və təbliğinə həsr etmişəm. Hərdən mənə elə gəlir ki, ədəbiyyat mənim Leylimdi, mən isə onun Məcnunu" - bu sözlər görkəmli Azərbaycan şairi, tanınmış ədəbiyyatşünas, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğluya məxsusdur və onun yenicə çapdan çıxan **"Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri"** (ADPU nəşriyyatı, 2010) kitabının üz qabığında verilməsinin özü də simvolik xarakter daşıyır. Əllidən artıq kitabın müəllifi olan, əsərləri orta məktəb dərsliklərinə düşən Rafiq müəllim ömrünün qırx ildən çoxunu balalarımızın təlim-tərbiyəsinə həsr etmişdir. O, ümumtəhsil məktəblərinin birinci sinifləri üçün yazılmış "Ana dili" dərsliyinin aparıcı müəlliflərindən biridir. Uzun illərdən bəri Sumqayıt Dövlət Universitetində, eyni zamanda Azərbaycan Dövlət Pedaqoji Universitetində mühazirələr oxuyan Rafiq Yusifoğlu ali məktəb tələbələri üçün də bir neçə dəyərli dərslik və dərs vəsaiti yazıb nəşr etdirmiş, həmin fənlərdən əhatəli tədris proqramları da hazırlamışdır. Uzun illərdir ki, ali məktəb tələbələri onun qələminin məhsulu olan "Ədəbiyyatşünaslığın əsasları", "Müasir ədəbi proses və ədəbi tənqid", "Uşaq ədəbiyyatı" kitablarından faydalı, dəyərli vəsait kimi bəhrələnirlər.

Bu yaxınlarda Rafiq Yusifoğlunun uzunmüddətli tədqiqatının bəhrəsi olan "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı sanballı elmi monoqrafiyası çap olunmuşdur. Bu monoqrafiya Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası "Azərbaycan dili və ədəbiyyat" bölməsinin qərarı və Azərbaycan Respublikası təhsil nazirinin 4 iyun 2010-cu il tarixli 730 nömrəli əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

Kitabın elmi redaktoru akademik Bəkir Nəbiyev, rəyçiləri isə AMEA-nın müxbir üzvü, professor Teymur Kərimli, filologiya elmləri doktorları professor Məhərrəm Qasımlı, professor Vaqif Arzumanlı və professor Ramazan Məmmədovdur.

486 səhifəlik bu monoqrafiyada XX əsrdə yazılmış Azərbaycan poemalarının məziyyət və nöqsanlarından elmi şəkildə söhbət açılır. Müəllif ədəbi nümunələrə, nəzəri ədəbiyyata və ədəbi tənqid materiallarına istinadən öz fikir və mülahizələrini söyləyir. Tədqiqatın yeni milli metodologiyanın prinsiplərinə uyğun şəkildə aparılması onun elmi dəyərini daha da artırır, sovet dövrü ədəbiyyatını yeni dövrün tələblərinə uyğun şəkildə, obyektiv meyarlarla qiymətləndirməyə imkan yaradır.

Monoqrafiyanın nəzəri səviyyəsi çox yüksəkdir. Burada poemanın inkişaf meyillərindən, janr xüsusiyyətlərindən, struktur və tipologiyasından söhbət açılır. İkinci fəsildə zaman və qəhrəman, üçüncü fəsildə isə konflikt və xarakter problemi tədqiqat predmeti seçilir. Bu fəsillərin müvafiq bölmələrində ədəbi prosesdə ənənə və novatorluqdan, müəllif və zaman fenomenindən, daxili münaqişədən, yeni xarakter axtarışlarından bəhs edilir. Üçüncü fəsil mühüm sənətkarlıq komponentlərindən bədii portretə, peyzaja, bədii detala, bədii təsvir və ifadə vasitələrinə həsr olunub. Müəllif poemalardan seçdiyi zəngin poetik faktlara istinadən öz fikir və mülahizələrini əsaslandırmağa çalışır və buna müvəffəq olur. Dördüncü fəsildə isə poemaların vəzn və qafiyə sistemi tədqiqat obyekti seçilir.

Ümumiyyətlə götürsək, Rafiq Yusifoğlunun "Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" adlı monoqrafiyası çox dəyərli, elmi arqumentləri inandırıcı, bədii faktlarla zəngin bir dərs vəsaitidir. Ümid edirik ki, bu monoqrafiyadan müəllim və tələbələr yetərincə bəhrələnə biləcəklər.

**Günel ALMAZ**

# Laçın məktəbliləri şahmata böyük maraq göstərirlər



Laçın mənfur qonşularımız ermənilər tərəfindən işğal olunduqdan sonra rayonun digər təhsil müəssisələri kimi Uşaq-Gənclər Şahmat Məktəbi də öz fəaliyyətini dayandırmadı. Belə ki, mərkəzi Bakı şəhəri olmaqla Sumqayıt, Abşeron və Ağcabədidə yerləşən Laçın rayonunun ümumtəhsil məktəblərində qruplar bərpa edildi və hazırda həmin qruplar öz fəaliyyətini davam etdirir. Laçın rayon UŞGM-nın direktor müavini Rüstəm Həsənovun verdiyi məlumata görə, məktəbdə hazırda 67 qrup fəaliyyət göstərir. Həmin qruplara 850 şagird cəlb olunmuşdur ki, onlarla 61 məşqçi-müəllim məşğul olur. Son illər respublikada şahmatın inkişafına dair aparılan işlərdə fəallıq göstərən məktəb mütəmadi olaraq ölkədaxili yarışlarda iştirak edir. Cari ilin mart ayında məşqçi-müəllim Elçin Verdiyevin rəhbərliyi altında Beyləqan rayonunda keçirilən Respublika birinciliyinin seçmə yarışlarında iştirak edən məktəbin idmançıları Pərvin Əlişli və Yaqub Bəndəliyev yüksək nəticələr göstərmiş və fəxri fərmanlarla təltif olunmuşlar.

Hazırda məktəbdə Vladimir Həsənov, Zülfiyyə Hüseynova və Elşən Quliyev kimi bacarıqlı, tələbkar məşqçi-müəllimlər çalışır. Şahmatla bağlı keçirilən seminarlarda iştirak edən məşqçi-müəllimlər Rəşad Aslanov, Əfsanə Quliyeva, Hafizə Ağazədə, Nəsrəddin Paşayev, Əzizağa Kərimli, Vahid İsmayıllı kimi istedadlı gənclərə ümidlə baxırlar. Onların böyük potensiala malik olduqlarına və gələcəkdə keçirilən turnirlərdə uğurla iştirak edəcəklərinə inanırlar.

**Niyazi RƏHİMOV**


## Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu

*Aşağıda adları göstərilən fakültələr və kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqə*

***elan edir:***

**Fakültələr üzrə**

1. Yenidənhazırlanma fakültəsinin dekanı.
2. İxtisasartırma fakültəsinin dekanı.

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Riyaziyyat və informatika
2. Azərbaycan dili və ədəbiyyat
3. Təbiət elmləri
4. Xarici dillər
5. Pedaqogika
6. Psixologiya
7. İctimai elmlər
8. İncəsənət və əmək təlimi
9. Mülki müdafiə, fiziki tərbiyə və tibbi biliklər
10. Təhsilin təşkili və idarə edilməsi
11. Təhsildə innovasiyalar

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası təhsil nazirinin 09.03.2011-ci il tarixli, 400 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydalarının təsdiqi barədə" əsasnaməyə uyğun elan olunduğu gündən 1 ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- rektorun adına ərizə
- kadrlaın şəxsi uçot vərəqəsi
- şəxsiyyət vəsiqəsinin surəti
- əmək kitabçasının surəti
- tərcümeyi-hal
- ali təhsil, alimlik dərəcəsi və elmi ad haqqında sənədlərin surəti
- dərc olunmuş elmi əsərlərin təsdiq edilmiş siyahısı.

*Ünvan: AZ-1134,*

*Bakı şəhəri, M.C.Paşayev, 11*

**Telefonlar:**
**(+99412) 430-47-96, 430-52-78**

**REKTORLUQ**



**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

## Azərbaycan Müəllimlər İnstitutu

***Aşağıda adları göstərilən boş olan vəzifələri tutmaq üçün müsabiqə***

***elan edir:***

**Pedaqoji fakültə üzrə:**

*Dekan* - Elmin müvafiq sahəsi üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Filologiya və təhsildə psixoloji xidmət fakültəsi üzrə:**

*Dekan* - Elmin müvafiq sahəsi üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**İxtisasartırma və yenidənhazırlanma fakültəsi üzrə:**

*Dekan* - Elmin müvafiq sahəsi üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Pedaqogika kafedrası üzrə:**

*Kafedra müdiri* - Pedaqogika üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Psixologiya kafedrası üzrə:**

*Kafedra müdiri* - Psixologiya üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrası üzrə:**

*Kafedra müdiri* - Elmin müvafiq sahəsi üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Xarici dillər kafedrası üzrə:**

*Kafedra müdiri* - Filologiya elmləri doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**İctimai fənlər kafedrası üzrə:**

*Kafedra müdiri* - Tarix və ya fəlsəfə üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**İnformatika kafedrası üzrə:**

*Kafedra müdiri* - Fizika-riyaziyyat və ya müvafiq ixtisas sahəsinə uyğun pedaqogika üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent

**Mülki müdafiə, tibbi biliklərin əsasları və bədən tərbiyəsi kafedrası üzrə:**

*Kafedra müdiri* - Tibb və ya müvafiq ixtisas sahəsinə uyğun pedaqogika üzrə elmlər doktoru, professor və ya fəlsəfə doktoru, dosent.

***Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:***

- *İnstitutun rektorunun adına ərizə;*
- *Kadrlar uçotunun şəxsi vərəqəsi;*
- *Tərcümeyi-hal;*
- *Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti;*
- *Elmi və elmi-metodik işlərin siyahısı;*
- *Şəxsiyyət vəsiqəsinin surəti;*
- *Əmək kitabçasının surəti.*

Bu elan dərc olunduğu gündən sonra sənədlər bir ay müddətində qəbul olunur. Sənədləri təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə bu ünvana göndərmək lazımdır:

**Ünvan:**
Bakı şəhəri, N.Nərimanov rayonu, akademik H.Əliyev küçəsi, 104.
AZ 1110.

**Telefon: 465-93-05**

**REKTORLUQ**